POETİK DÜŞÜNCƏNİN MÜKƏMMƏL İFADƏSİ



Əkbər ƏLİOĞLU,
filologiya üzrə fəlsəfə doktoru

"Gülü solan bir ürək"dən danışmaq istəyirəm. O ürək sahibindən ki, on bir şeir kitabının müəllifi olsa da, təkidlə israrlıdır ki, "mənə şair deməyin". İndi nə edək; koru körpüdən necə keçirək? Deyək ki, on cilidlik külliyatdan bir cilidlik həcmində dəyər qazana bilirsənsə, zaman-zaman yaddaşlarda üç-beş şeirinlə qala bilib əbədi müasirlik libasında görünürsənsə bəs onda necə olsun? Deyək ki, hər hansı bir şeirin ədəbi cameədə ədəbi hadisə kimi dəyərləndirilməyibsə bu çıxdaşmı olmalıdır. Bədii mütaliənin uralandığı, fəqət yazanların çoxaldığı indiki durumda kimin əsl ədəbiyyat adamı, əsl yaradıcı şəxsiyyət olduğunu, ümumən xalqın tanıdığı və xalq sevgisini qazandığını bilmək dərvişi libas olub gəzmək qədər çətindir. Qayğılar o qədər artıb ki, onun sferasından özünü azad etmək olduqca ağırlaşıb, özü də ictimai münasibətlərin, kütləvi-texnoloji, internet saytlarının "gözqamaşdırıcı", "ağıl çaşdırıcı" bir dönəmində. Və üstəgəl də üzünə piranlığın ruhuna çökdüyü fiziki və psixoloji yaşantılar bolluğunda. Bununla belə özümüzdə, sözümüzdə təpərə uyub bu ürəyin gülünün solmadığını bəyan etmək ömrün uzanmasına, ilhamın əsən yellərə qoşulub Tanrı dərgahına çatıncayədək səfərdə olmasına ümid, inam vermək qədər qoldan tutmaq, bu ürəyə rahatlıq toxumu səpmək demək olardı, amma "Mənə şair deməyin" israrına hörmət göstərmək şərtilə. Burada bizim üçün qeyri-adi və maraqlı görünən həm də odur ki, "Mənə şair deməyin" kəsin - Rafiq Musanın son üç kitabına professorlar redaktorluq edib. Belədə özünü yığışdırmalı olursan, məsuliyyətli bir işə rəvac verməyinə emosional və əqli yükünün ağırlığına tab gətirib nəsə qaralaya biləcəyin barədə düşünmək məcburiyyətində qalmalı olursan.

Ötək əsas mətləbə: - "Ömrüm, məni bağışla" (Bakı "Bayramoğlu", 2024) adlı böyük həcmli şeirlər kitabının "müəllif səliqə-səhmanına, mövzu hüdud və ifadə imkanlarına; polifonik düşüncənin hüdudlarına, fikrin metaforik təbiətinin, bədii-estetik, ictimai-fəlsəfi çəkisinə. Əslində isə fikrimiz belədir; kiçik sitatların - poetik deyimlərin çəkisini, heyranlıq doğuran məna incəliklərini açıqlamaqdır. Zənn edirik ki, buna nail olsaq, elə qeyd etdiyimiz komponentlərin varlığının təsdiqinə möhür vurmaq demək olardı. Elə ilkin olaraq etiraf və biblioqrafik çalarlarla müşayət olunan, sonu nikbinliklə tamamlanan "Ömrüm, məni bağışla" adlı 12 səhifəlik ömür salnaməsinin poetik məziyyətinə nəzər salaq. Əsər elə axıcılıqla, məzmun gözəlliyi ilə yazılıb ki, misraların təsir arenasından ayrılmaq çətinliyi üzə durur; bilmirsən, hansı nümunəni sitat gətirib təhlilə cəlb edəsən. Ötən illərə-dünənə hesabat, ona münasibət üzərində qurulan mətn həyatıdır, canlıdır, ibrətamizdir və ustalıqla təqdim olunmuşdur. Burada "Mıxdan asılı qalmış dünənin, illərin" gileyli xairlanması bir sıra hallarda bədii təzadlarla müşayət olunur. Dünənini göy üzünə səpməklə müşayət olunan "beş" almaq istəyindəykən bəxtə "iki" düşməsiylə "Baş qoymadın balınca" deyiminin antoqonizmində əslində vəhdət dinamizmi vardır; boş ötməyən, vecsiz keçməyən ömrün dünəninə müsbət qiymət fikri, düşüncəsi oxucunu tərk etmir, əsəri oxuyub tamamlamağa yönləndirir.

Beləcə şeir boyu bu ömür, söz yiyəsi "Dünya yaman dəyişir, haqq-ədalət yalandı, əyrilər iş başında, hərə bir cür xoxandı", "Hər kəsə can demişəm, anlamayıb bəzisi. Demə fərqli çəkirmiş dəllalın tərəzisi" söyləyərək ictimai həyatın koleydoskopik mənzərələrini göstərir.

Alim gördüm, yarımçıq,
Kamil deyil hələ də.
Mən şairlər görmüşəm
Fikirləri bayağı,
Budağı bəyənməyir,
Tərifləyir yarpağı.
İstedadsız "şairlər"
Armudu kal dərdilər,
Vətən, sevgi sözünü
Saqqıza döndərdilər.

Belə bir dönəmdə "kimsəyə yük olmamaq", işiylə, əməliylə düz olub "göylərə çəkilmək", "sarı simlərdə oxunan sevgilərlə köklənmək" hünər, cəsarət, mənəvi yetkinlik tələb edir. Özü də hansı şəraitdə: "sinənə sıxdığların sinəni yarıtmır", "arzu-istəklərin sac üstünə yayılır". Və "sevənlərim azalıb, ümid qalıb gümana, dərədə sel olmuşam, bürünmüşəm dumana" görkəmində, dönəmində özünün gələcək yaşam məramını da bəyan etməklə düz yaşanılmayan ömürdən bağışlanılması" rica olunur. Bu "səmərəsir" ötən dünənlər sən demə nə qədər şirin və mənalıymış. Dərd çəkənlər, həsrət görənlər belə bir həyatın nə qədər mənalı ötdüyünü çox gözəl bilirlər. Bu şeirin daşıdığı ictimai-fəlsəfi mahiyyətinin, bədii-estetik mayasının incəliyi, zərifliyi onun müəllifi haqqında layiq olduğu ödülü oxucuya asanlıqla sevgiylə pıçıldayır. Bunlar öz yerində. Bəs "hanı yerində daş bitən sevdalı könül", "Dünənimdən qalanı səpmişəm göy üzünə", "Haqsızların əlindən içimdə gizlənmişəm", "Küləklərə qoşulub dağda, dərədə əsdim", "könlüm qəmli bayatı" "illər muncuq qatarı, sapdan tökülüb gedir", "Göylərə elçi düşdüm, Yer mənə yemlik verdi", "Mələklər sevindirdi, Yuxuda lələk verdi", və s. kimi bir şeirin köksündə əyləşib onun məna dərinliyinə ucalıq gətirən qulağın təzə eşitdiyi izafətlər, poetik fiqurlar şeirimizə yeni nəfəs, təzə səs gətirməsi, fikir və düşüncələrin, anım və xatırlanmanın, poetik kəşfə bərabər metaforik təbiətləri?.. Bəlkə biz bəlağətli danışırıq, ya şeirin təsir mexanizmini dəqiq təyin edə bilməmişik. Qoy əsl ədəbiyyat adamları, şairlər öz sözlərini desinlər, - Allahı başları üstündə görmək şərtilə.

"Ömrüm, məni bağışla" şeirinin bizdə yaratdığı təəssürat ən ümumi halda belə oldu. Belədə, doğrudarmı, poetik düşüncə sahibinin ürəyinin gülünün solmasına inanmalıyıq. Zəmnimizcə, bu əlbəttə ki, şair yalanından başqa bir şey deyil. Fəqət bu "yalan" böyük həqiqətləri, incə mətləbləri, rəzalət və haqsızlıqları necə də təsirli boyalarla əks etdirib. Maraqlı burasıdır ki, Rafiq fərdi taleyinin müxtəlif çağlarına, dönəmlərinə üz tutarkən Vətən və yurd yerlərini, Qərbi Azərbaycanın füsunkar təbiətini həmin fonlarda qabarıq boyalarla əks etdirir. Poetik "mən"in fərdi yaşantıları Vətən sevgisi ilə vəhdətləşir. O, bu səciyyəli şeirlərində özünü "Vətən mənə oğul desə nə dərdim, Mamur olub qayasında bitərdim" deyən şairin poetik qardaşı kimi təqdim edə bilib. Bu isə onun yaradıcılığında Vətənə məhəbbət və sevgi mövzusunun aparıcı mövgeyə keçdiyini təsdiqləyir. Baxmayaraq ki, onun sırf ayrıca Vətən sevgisini əks etdirən şeirləri də az deyil. Həmin şeirlərdə konkret məkanların, eləcə də toponimlərin, oykonim və oronimlərin həsrət duyğuları ilə anılması və vəsfi baxımından görkəmli şairimiz Əli Rza Xələfli ilə birləşir; hərə öz bilgisi, təsvir üsulu və bədii imkanları daxilində ustad, böyük sənətkarlarımızı - Vurğunu, M.Arazı, O.Sarıvəllini, M.Yaqubu, H.Arifi, M.Aslanı və Zəlimxan Yaqubu xatırladırlar. Təbii ki, onların arasında bərabərlik işarəsi qoymaq, baxmayaraq ki, əsl böyük sənətkarları qarşı-qarşıya qoymaq ədəbi cameədə düzgün sayılmır, da böyük həqiqəti - ədəbi məktəbliliyi, ədəbi varisiliyi, nəhayət, müəllim-şagird düstürünu danmaq olardı. Nə isə, ritorik yer, mövqe göstərməyi qoyaq kənara, Rafiqin haqqında bəhz etdiyimiz mövzulu digər şeirlərinə müraciət edək. Onu "Ömrüm, məni bağışla" şeirinin yarat-

Salamat qal əzizim,
Səni kövrəltdim bir az,
Qurban olum mən sənə,
Daha bizimki tutmaz.

Gümanım yox sabaha,
Tez-tez dəyişir halım.
Bir anlığa gəlmişdim
Səndən halallıq alım!

Elə məqamdır ki, bu nümunə əsasında Rafiqin poetik forma şeirinin ana xəttini xüsusi olaraq vurğulayaq. Onun şeirlərinin böyük əksəriyyəti qəraylıları xatırladan yeddi hecalılıq üzərində qurulub. Həmin şeirlər elə bu halında da səs-söz düzümü, ahəngi, ritmik pauzalar, misradaxili bölgülərin, hətta yer dəyişmələri fonunda belə axıcıdırlar, təbii axarlıdırlar və ən əsası ümumi məna yükü təsirlidir, çəkərlidir və metaforik görümdə olmaqla bənzərsizlik libasındadırlar. Zənn edirik ki, bu cəhət onun ən ümumi halda bənzərsiz poetik simasının, fərdi üslubunun göstəricisidir. Təqdim olunan ilkin iki bəndin daxili bölgüsü və fikirlərin məntiqi bağlılığına da nəzər yetirsək həmin bənzərsizliyi kəsirli tərəfi şeirə aşağılıq gətirə bilməyib. Bu kəsirlər 4+3-lə 3+4-ün yerdəyişmələrindən ibarətdir, fəqət ahəng və məna bu kəsiri asanlıqla ört-basdır edə bilib. Birinci bəndin dördüncü misrası 3-cü misraya tamamlama, sonraki bəndin 4-cü misrası 3-ü misraya aydınlatma mislini xatırladır. Yarım misralar məntiqi bağlılıqla bütöv fikri tamamlayır. Hər belə halda 3-4-cü misralar qafiyə sisteminə qoşulmur, sərbəst buraxılıb (bu isə kəraylıya xas əlamət deyil - Ə.Ə.). Bəzən də həmin yarımmısralar konkret fikir daşıyıcısı olur, ona aid qafiyə yaradan yarımmısrayla, məsəl üçün aydınlaşdırma əlaqəli fikir formatında reallaşır. Eləcə də xatırladaq ki, Rafiqin bu formatlı şeirlərinin bir qismi "Məni candan usandırdı" qəzəlinin beytlərinin yarımmisralarla ifadə mümkünlüyü şəklindədir. Bu cür texniki, forma zənginliyini onun şeirlərində ayrıca olaraq şərh etmək, təhlilə yönəltmək onun bədii sənətkarlığının zəngin kriteriyalarını açıqlamaq ayrıca bir mövzunun predmeti kimi özünü doğrulda bilir. Təbii ki, yuxarıda qeyd etdiyimiz kimi bu cəhətlər fərdi təfəkkürün özünəməxsus ifadə imkanları, işləklik tempi kimi fərdi üslubun aparıcı meyarlarından biri kimi başa düşülməli və qiymətləndirilməlidir.

"Düyünün ilməsində", "yaxşı-pisin cəbhəsində", "gözəllərin çöhrəsində", "şeirinin cümləsində" və "bəxtinin qibləsində" yaşayan poetik "mən" "Babam nağıl danışır" adıyla, yəni özünün uşaqlıq olaylarına səyahət fonunda satirik planda müasir həyatımızın neqativ tərəflərini diqqətə çəkir, kəndi unutmayan anasının anımında "dünya işinin mədar yoxluğu" (Füzuli) özünəməxsusluqla dilə gətirir, "dünya dəyirman daşıdı, insan olan dəndi anam", - deyə dövrünə öz dəyərini verir ("Kəndi unutmadı anam") və elə bu fonda da "Köçkün deyiləm"in sevincini yaşayır,

Bayrağım yelkənimdir,
Qarabağım bir dəniz.
Şuşa - mənim mayağım,
Sahillərin tərtəmiz,
Daha köçkün deyiləm,

- bənzətmələri ilə ruha yeni nəfəs, təzə oyanış, çağlar həyatdan soraq müjdəsi bəyan edir.

(Davamı 4-cü səhifədə)

POETİK DÜŞÜNCƏNİN MÜKƏMMƏL İFADƏSİ

(Əvvəli 3-cü səhifədə)

Əsl şairanə yaşam və poetik lövhədir. Və bunula da "qəm daşıayn ananın" övladı zəfər sevinci ilə dəyirman daşı olan dünyanı və bu dünyayla xarakterizə olunan "dən insanı" bizə təqdim etməklə şeirlərində bədii təzadlar yaradaraq işıq və zülmət, xeyir və şər, fəzilət və qəbahətli əməllər haqqında məzmunlu, fikrə yüklənən söyləmlər sərqiləyir.

Yuxarıda qeyd etmişdik ki, Rafiq Musa fərdiyətində ictimailəşmiş ömür kitabını ifadə edən şeirlərinin ruhu eyni zamanda Vətənə məhəbbət, Vətən, el-oba, yurd həsrəti, onun təbiətinin rəngarəng görüntüləri də bu məzmunlu şeirlərində də oturaqlaşmışdır. Qeyd etdiyimiz məkanların, toponim və oronimlərin, aykonimlərin anılması və fəxarət duyğularıyla müxtəlif zaman civarlarına söykənən görüntülərinin təsviri bu şeirlərdə xüsusilə diqqəti cəlb edir. Nəinki diqqət çəkən olur, eyni zamanda onların canlı nəfəs və portretlərini gözümüzdə canlandırıb içimizə axıdır. Həmin şeirlərin adlarını burada sıralayıb sətir bolluğu nümayiş etdirmək istəmirəm. Deyim tərziylə xüsusi halda qəlbimizə yatan bəzi nümunələrsiz də keçinmək olmur. Təkcə "Zaman o zaman deyil" şeiri, demək olar ki, göstərdiklərimizin hamısını öz mətnində, avazında, məna tutumunda özündə dəqiqliklə toplamışdır. Qərbi Azərbaycana məxsusi yerlərin bir-bir bəndlərdə sıralanması, həmçinin, Araz həsrətinin də bunların gözünə qatılması şeirin ideyalamlı "El köç etdi" şeirində isə yağmalanmış, əsl sahibindən ayrı düşmüş yurd yerlərinin nisqilli anımı "Zaman o zaman deyil" şeirində olduğu kimidir. 21 bəndlik bu şeirdə 20-dən artıq yaşayış yerlərinin, kəndlərin, obaların, dağların və s. adları poetik qalıba salınmışdır. Təqdim etdiyimiz iki bənd fikrimizə real söykəkdir.

Güllücənin çiçəyinə, gülünə,
Həsrət qaldıq gül qoxuyan yelinə.
Qayıdan yox, obasına, elinə,
Bu həsrətə kim dözəcək, bilmirəm?

Gözəl Çaxmaq, çaxmaqların çaxıldı,
Ev-eşiyin yandırıldı, yaxıldı.
Saqqızlı dağ dözəmmədi, yıxıldı,
Bu həsrətə kim dözəcək, bilmirəm?

Çəkinmədən, cəsarətlə demək olar ki, bu cür şeirlər "dağa atam, anam" söyləyən, "ayrılarmı könül candan" deyən, "bu dünyanın qara daşı göyərməz" yazan (xatırladaq ki, Rafiq Musa Musa Yaqubun bu şeirinə müraciətdə tamamilə əks qütblü şeir yaratmışdır Ə.Ə.), "sağlığında qiymət verin insanlara" çağırışlı, ilan balasına bəşəri münasibət bildirən, Qurbanı "Bənövşə"sinin tilsimini sındıran şairlərin söz dünyasına bənzər nümunələrdir. Təxminən 48 illik zaman uzaqlığından sonra mən Rafiq Musanı bu çəkidə özü də təkcə bir kitabının simasında gördüm, tanıdım, onun ruh aləminə bağır basdım. O, Rafiq Musa ki, yuxarıda qeyd etdiyimiz kimi israrla təkid edir ki, mənə şair deməyin... Heç dəxli var... Bu sətrədək şair Rafiq Musa yazmamışdım, amma indi yazacam; azad düşüncəmə niyə zəncir vurmalıyam. Şairlər bir qədər də kövrək, yumşaq olur. Zənn edirəm ki, bölüşdüyü bu tarixi anlarda "Görən, harda qalıbdı telefonçu o xanım?" - deyə "poçtalyonun" yaşantısını özününküləşdirir. Bu narahatçılıq görün misralarda necə oturaqlaşıb; buradaki "bəlkələr"lə başlanan misralar "Ana və poçatlyon"daki bəlkələrlə nəinki assosiasiyalaşıb, həmçinin, fikir və emosiyaların bənzərliyi heyrət doğurur.

Bir zaman telefonda
Susanları qınadı,
Telefonçu, o gözəl,
Bəlkə indi anadı.

Bəlkə onun da oğlu
Döyüşən əsgər olub.
Bu torpağa, bu yurda
Dağ olub, sipər olub.

Bəlkə indi oğlunu
Basıbdır sinəsinə.
Bəlkə oğlu yüksəlib
Şəhidlik zirvəsinə.

bədii siqlətini mükəmməl deyimlərdə oturaqlışdıra bilmişdir "Və poetik "mən" tarixi olaylar fonunda "ayaq tutub yeriməyimizi", "qılıncları işə salıb Boz qurda arxalanmağımızı ön plana çəkərək üstümüzə əsən yellərin ünvanını göstərir.

Üstümüzə şir deyil,
Çox zaman tülkü gəldi.
Şimaldan soyuq külək,
Cənubdan bürkü gəldi.

Dəqiq, sərrast poetik bir ünvandır. Bu ünvanlara isə artıq indi münasibət birmənalıdır, qətiyyətlidir, təpərlidir.

Oyandıq zamanında,
Zaman, o zaman deyil.
Düşmənə aman yoxdur,
Aman, o aman deyil.

Poetik "Mən" məkanlarımızı birbaşa müstəqim mənada anmaq və öyməklə bərabər həm də onları qələbə müşdəli deyimlərin tərkibində bizə təqdim edir, əlimizdən tutub böyük Vətən torpağını gəzdirir.

Yolunu azmışalrın,
Köçhaköçdür hər işi,
Hamamdan xəbərsizin.
Hamamlıda nə işi.

Ayaq basaq Gümrüyə
Torpaq mənim, daş mənim.
Qumruların gözündə
Donub qalan yaş mənim.

Göstərdiyimiz bu sərgilənmələr şeirin sonunda ümumləşdirmə sənətkarlığı libasında bax belə yekunlaşıb;

Mənim sağım, solumdur,
Dağ babam, aran babam.
Son qələbə sənindir,
Ey böyük Turan babam.

Eyni məzmun, forma və məkan anşair mənə təən eyləməz, incik düşməz.

Həm də unutmamalıyıq ki, o, ondan artıq kitab müəllifidir, AYB üzvüdür, şeirlərinə mahnılar bəsdələnib, haqqında verlişlər hazırlanıb, efirlərdə səsləndirilib, göstərilib.

Şair ömür kitabını vərəqlədiyi, eləcə də Vətən, yurd həsrətini çəkdiyi şeirlərin mətnində yeri gəldikdə Qarabağ savaşı olaylarına müraciət edir, zaman kateqoriası bu olaylar vasitəsilə sanki görüşdürülür, onlar arasında məntiqi bağlılıq yaradılır, körpü salınır. Onun "Qarabağ Azərbaycandır" şeiri bu baxımdan müxtariyyətlilikdən kənar olub ayrıca, müstəqil bir şeir kimi diqqəti daha çox cəlb edir. Biz bu şeiri yaxın vaxtlarda "Kredo" qəzetində də oxuduq. Şeir bizim üçün eyni zamanda ona görə əlamətdardır ki, burada qələbə müşdəsinin səsini eşidir, sevincini yaşayırıq. Əlamətdarlığı səciyyələndirən digər cəhət isə bu müşdəni televiziyada xəbər verən, xalqı fərəh və qürur duyğularında kökləyən Jalə xanıma müraciətlə yazılmasıdır: "Sən danış qələbədən, Mən yeni dastan yazım". Və şair "Qarabağ Azərbaycandır" dastanını beləcə yaratdı; sürəklilik, şaqraqlıq, fərəh genişliyi, tarixə ekskursiv müraciət, oğullarımızın qəhrəmanlıq səlnaməsi və s. kimi detallar ötən çağların anımıyla - acı xatirələrlə çulğaşaraq "dastan"a monumentallıq, polifonik ovqatlılıq bəxş etmişdir. Şeirdə müşahidə etdiyimiz bir nüans bizi xüsusilə adi təsəffürlər mənqənəsindən ayırıb içimizi canlı nəfəslə doldurdu. Təsirləndik və bu nüans bizə klassik "Ana və poçtalyon"u xatırlatdı. Belə ki, bu tarixi müjdənin xəbərçisi sanki yubanır. Poetik "mən" narahatlıq keçirib "millətin sevincini

Daha əlavə izahata ehtiyac qalmır. Burada yalnız bircə şeyin yeri görünür; xalq artisti Vera Şiryenin poçtalyon obrazlı ağrılı və təntənəli ifasında bu misraların da səsləndirilməsi. Fəqət, heyhat!.. Və yadıma bir şey də düşdü; Böyük Vətən müharibəsində "sovet adamları" adlandırdığımız insanların bir-birinə isti, hərarətli köməyi, dərdlərinə ortaq olmağı... Fəxarətlə deyə bilərik ki, biz də otuz illik acılı-ağrılı zamanlarda köçkünlərimizə qucaq açdıq, hər cür maddi və mənəvi dəstəyimizi onlardan əsirgəmədik. Ən böyük dəstək isə dövlətimiz oldu, özü də hansı tarixi-ictimai, siyasi bir atmosferanın bizi üzdüyü, qara div kimi qorxu altında saxladığı bir şəraitdə.

Şair şeiri belə bir sonluqlu bəndlə tamamlayır:

Mən də öz qələmimlə
Bu döyüşə atıldım.
Qırx dörd bəndlik yazımla
Zəfərlərə qatıldım.

Xalq bu zəfərlə, qələbə sevinci ilə hələ də yaşam sevincini davam etdirir. Qardaş, bu şeir sənin üçün imtahan mərtəbəsində bir sınaq oldu. Sən bu sınaqdan zəfərlə çıxmısan, onu ictimailəşdirə bilmisən, klassik şeirlərimizin bir nümunəsini oxucuların mühakiməsinə vermisən. İnanıram ki, bu mühakimədən də üzü ağ çıxacaqsan, zəfərin mübarək!

Döyüşlərdə zəfər vətənpərvərlik və torpaq təəssübkeşliyi, eləcə də milli mental dəyərlərin uca tutulması yolunda göstərilən fədakarlıqlardan su içir. Bu cəhətdən şairin bir sıra şeirləri sırf vətənpərvərlik mövzusunda olub, - hərəki və dinamik pozada. Qarabağ olaylarının real görüntüləri üzərində quruşey alınmayacaqdı. Bu mənada yeri gəlmişkən bir nüansı da xatırlatmağı vacib sayırıq, ilkin olaraq bildirək ki, "Ömrüm, məni bağışla" şairin ən son çap olunan kitabıdır. Və burada - annotasiyada bildirilir ki, kitaba şairin əvvəlki illərdə çap edilmiş şeirləri də daxil edilmişdir. Bu kitab isə bizim onun yaradıcılığı ilə ilk tanışlığımızdır. Kitabı vərəqlədikcə nəyin şahidi oluruq; bir çox səhifələrdə satirik şeirləri və 503-cü səhifədən - 523-cü səhifəyədək olan hissədə isə təmsilləri verilmişdir. At üstü nəzərdən keçirmə mənə diktə etdi ki, Rafiq Musa bəlkə də ilkin növbədə satirik - təmsilçi şairdir. Və ictimai, bədii-estetik, fəlsəfi yanaşma baxımından təhlilə cəlb olunası dəyərli şeirlər "bizi oxu" - deyə maraq doğururlar. Deməli, bu şeirlər öz bətnində ideya-bədii sənətkarlığın aparıcı komponentlərini gizlədiblər. Bu gizlinclərin üstündən pərdəni götürmək, hüsni-məlamətini görmək, təravətini ruha çəkmək, əlbəttə ki, bizim üçün xoş olardı. Qərara gəldik ki, bu məsələ bir problem olaraq ayrıca bir məqalə tutmunda reallaşsa daha önəmli və əhəmiyyətli olardı. Çünki məhz belədə poetik "mən"in fərdi yaradıcılıq məramını və bu məramin ifadə üsullarını təyin etməklə şairin fərdi üslübünü müəyyənləşdirmək olardı. Düzdür bu üslübün müəyyən detallarını burada təqdim etmişik, amma görünür ki, onun sistemli və mükəmməl bir şəkildə bütöv xarakterini verə bilmək üçün növbəti araşdırmaya xüsusi ehtiyac var. Bunu biz edəcəyikmi, ya başqası - bu, gələcəyin işidir.

(Davamı 5-ci səhifədə)

POETİK DÜŞÜNCƏNİN MÜKƏMMƏL İFADƏSİ

(Əvvəli 4-cü səhifədə)

Rafiq Musa poeziyasında fərdi ünvanlara tuşlanmış xeyli sayda şeirlər vardır. Həmin şeirlərdə də poetik vüsət diqqətdən yayınmır, cəlbedicidir, müəyyən xatirələr, dost insanlar dil açıb oxucuyla sanki üzbəüz söhbətləşir, dardlaşır və bu fonda da müəllif zaman və insanlar haqqında təpdir və etirazlarını bildirməkdən qalmır, maddi-mənəvi durumu barədə də açıqlamalar verir. Bu baxımdan "Şair Əli Rzaya açıq məktub", "Dünyanın nəyinə güvənim, qardaş", "Var olsun ocağın, elinə əhsən", "Avropanın qapısı", "Hörmətli Jalə xanıma", "Dədə-baba qonşum Allahyar Qəribova açıq məktub", "Bu çarxı fələkdən", "Dostlarıma", "Adamlıqdan çıxanlar", "Ömrün zirvəsi" və s. şeirlərin özünün qədir-qiymət bilən, huşyar oxucularını tapacağına inanmamaq mümkün deyil.

Bu baxımdan keçmiş təhsil nazirinin mənəvi pasportuna salınan işıq fonunda şairin

Əqidəniz sözünüzlə düz oldu,
Söz verəndə arxasında durdunuz.
Haqsız işdə imzanızı görmədik,
Haqlı işə hər vaxt möhür vurdunuz -

- deyiminə onun sükutla, təvəzzö baxışla razılığını bildirəcəyinə, eləcə də "Kamil adam alimidir hər işin, Alim gördüm, kamil deyil hələ də" fikrinin doğruluğunu isə təsdiq edəcəyinə də inanırıq. Bu baxımdan biz bu düşüncədəyik ki, Misir Mərdanov Mehdizadənin təmiz, namuslu və həqiqi varisi olduğu kimi (Fərq; Əli Rzada bir qrupun nümayəndələri vəsf olunur, özü də ayrı-ayrı başlıqlar altında bir neçə bənddən ibarət, Rafiq isə tək-tək bənlərdə öz vəsf mizrabını telləndirib - Ə.Ə.).

Qərbi Azərbaycan elim, elatım,
Oğuz da bizimdir, Qorqud da bizim.
Buyursun məclisə Əzəmət, Həsən,
Hüseyin mərdidir yurd yerimizin.

Deyin Abuzərə - dağlar oğluna,
Əsgəri götürüb tədbirə gəlsin...
İşimiz belədir, zəhmət olsa da,
Yolüstü qazaxlı Paşaya dəysin.

Beləcə adlar - hər birisi bir dünya ömür sürmüş, görüb-götürmüş tələbələr; Səmədddin, Firuz Mustafa, Tahirə, Əfruz, Səfərəli, Fəxrəddin, Sərtib, Füzulili Şahali, Oğuzlu Maarif, Əli, Hacıqabuldan Balaxanım, Göyçaydan Adil...

Elmira, Lyudmila gəlsin Bakıdan,
Bütün gözəlləri Tanrı qorusun.
Kamillə Tofiq də gecikməsinlər,
Yevlaxdan buyursun, başa buyursun.

Bu "buyursun"ların yekun akkordunu da oxuyaq:

Qayıdaq gəncliyin nübar çağına,
Yenidən yaşayaq o illəri biz.
Dünəni yaşayaq, xatirələrdə,
Sabaha köklənsin ümüdlərimiz.

Şair şeirin sonunu bu məclisin 2025-ci ilinə çağırış nidasıyla tamamlayır. Və nəticədə bu geniş masştablı panoram, polifonik görüşün fəlsəfi, bəşəri mahiyyətinə möhür vurur.

Hər günün dəyəri qızıldan ağır,
Tanrımız veribdir zəmanətini.
Allahın verdiyi illər bizimdir,
Qoruyaq Tanrının əmanətini.

muşdur. Xalqın bu mərtəbədə görünən ziyalılarını anmaq, nümunə göstərmək Allaha da xoş gedər, bəndəyə də. Bu baxımdan "şair Əli Rzaya açıq məktub" şeiri öz məzmun, ideya bədii məriyyətləri ilə xüsusi səciyyəvilik kəsb edir.

Oxuculara açıqlama vermədən deyim ki, bu açıq məktubun yazılma səbəbi mənə çox tanış və məhrəmdir. Əli Rzanı qane edəcək, onun poetik səliqəsinə yaraşan məzmun və formadadır. Fəqət, Əli Rzada forma əvəzlənmələrinə, öz ifadəsini tapan hədəf Rafiq Musada yalnız dördlüklər formasında təsvir və tərənnüm olunub. Hədəf isə tələbəlik illərinin xatırlanması, tələbə dostların təqdimi və bu fonlarda qocalıq illərinin yaşantıları Əli Rzanın sözüylə desək xəzanda yaz gülləri kimi poetik bir mizanda düşünülməsindən ibarətdir. Düşüncələrin tapındığı məkan isə 48 ildən sonraki görüşün baş tutduğu dost məclisidir; qızlı-oğlanlı, nənəli-babalı. Bu məclisdə yaşanılan auraya, şair yozumuna bax; anılmalar silsiləsi sıralanmağa başlayır; "Kiminsə ünvanı kimənə bəlli, kiminsə ünvanı qara daşdadı", "Kimsə qocalığı boynuna almır, Qocalıq çoxunun minib boynuna". Bununla belə hamı eyni ovqatdadır.

Naşükür deyilik taleyimizdən,
Hələ tükənməyib Tanrının payı.
Hər səhər Günəşi salamlayırıq,
Hələ yetərlidir dostların sayı.

Beləcə "gənclik arzusuyla, coşubdaşan" bu müdrik qocalar "dağı dağ üstünə qoymaq həvəsini" itirmirlər.

Bu həyat bizimdi, zaman bizimdi,
Dadını çıxaraq ötən illərin.
Əl tutmaq Əlidən qalıbdır, qağa,
Adəti gözəldi bizim ellərin.

Dost-tələbə məclisinə çağırış fonunda - hər bir bənddə dostların (bu dostların sayı məclisdə "qızlı-oğlanlı", babalı-nənəli 80 nəfərə yaxın idi - Ə.Ə.) adları sıralanır, şəxsi keyfiyyətləri, yurd yerləri anılır, yəni Əli Rza Xələflidə olduğu kimi (Fərq; Əli Rzada bir qrupun nümayəndələri vəsf olunur, özü də ayrı-ayrı başlıqlar altında bir neçə bənddən ibarət, Rafiq isə tək-tək bənlərdə öz vəsf mizrabını telləndirib - Ə.Ə.).

Qərbi Azərbaycan elim, elatım,
Oğuz da bizimdir, Qorqud da bizim.
Buyursun məclisə Əzəmət, Həsən,
Hüseyin mərdidir yurd yerimizin.

Deyin Abuzərə - dağlar oğluna,
Əsgəri götürüb tədbirə gəlsin...
İşimiz belədir, zəhmət olsa da,
Yolüstü qazaxlı Paşaya dəysin.

Beləcə adlar - hər birisi bir dünya ömür sürmüş, görüb-götürmüş tələbələr; Səmədddin, Firuz Mustafa, Tahirə, Əfruz, Səfərəli, Fəxrəddin, Sərtib, Füzulili Şahali, Oğuzlu Maarif, Əli, Hacıqabuldan Balaxanım, Göyçaydan Adil...

Elmira, Lyudmila gəlsin Bakıdan,
Bütün gözəlləri Tanrı qorusun.
Kamillə Tofiq də gecikməsinlər,
Yevlaxdan buyursun, başa buyursun.

Bu "buyursun"ların yekun akkordunu da oxuyaq:

Qayıdaq gəncliyin nübar çağına,
Yenidən yaşayaq o illəri biz.
Dünəni yaşayaq, xatirələrdə,
Sabaha köklənsin ümüdlərimiz.

Şair şeirin sonunu bu məclisin 2025-ci ilinə çağırış nidasıyla tamamlayır. Və nəticədə bu geniş masştablı panoram, polifonik görüşün fəlsəfi, bəşəri mahiyyətinə möhür vurur.

Hər günün dəyəri qızıldan ağır,
Tanrımız veribdir zəmanətini.
Allahın verdiyi illər bizimdir,
Qoruyaq Tanrının əmanətini.

Mənə böyüklüyü, bəşəri dəyəri, bədii-estetik gözəlliyi, poetik mükəmməlliyi baxımından kim deməz ki, burada Vurğun ruhunun, Bəxtiyar qələminin, Zəlimxan Yaqub axarlığının bənzərliyi yoxdur, ədəbi varisliyi göz önündə durmur, nəhayət, Əli Rza Xələflinin könül, duyum, fəhm yaxınlığı yoxdur...

Dostlara - fərdi ünvanlara yönlənmiş məktublar, ithaf olunmuş şeirlər "Əli Rza Xəlifliyə açıq məktub"dan fərqlənirlər. Məsələn, şairin güvənci qalmayan dünya haqqında tənqidi düşüncələri fil.e.d. Buludxan Xəlilova yönləndirilən şeirdə giley-güzar formatında sərgilənmişdir. Müasir dövrümüzün naqislikləri, mənəvi aşağılıqları, haqsız-ədalətsiz işdəhləri poetik qalıba salınaraq tənqid çubuğuyla qamçılanır, yeri gələndə isə ironik yumorla gülüş hədəfinə çevrilir.

Əyriyə arxasa, düzə qənimsə,
Sağımdan soluma kədərsə, qəmsə,
Arxası, köməyi əgər mənəmsə,
Dünyanın nəyinə güvənim, qardaş!

Nə elə deyən zorum var mənim,
Nə şeş gətirəsi zərim var mənim,
Bir quru sümüyüm - dərim var mənim,
Dünyanın nəyinə güvənim, qardaş!

Tənqidin ictimai məzmunu və ifadəliliyi dosta məktubda belə görünürsə, görün şairin sırf tənqidi şeirləri, təmsilləri hansı poetik çəkidə və dəyərdədirlər. Biz yuxarıda məhz bu cəhəti nəzərə alaraq şairin yaradıcılığının bu istiqamətini ayrıca bir məqalənin mətni kimi təqdim eməyi daha məqsədəuyğun olduğunu bildirdik.

Rafiq Musanın 500 səhifədən artıq həcmdə olan bu kitabında digər mövzularda olan şeirlərinə də təsadüf olunur. Onların hamısını təhlilə cəlb etmək bəlkə də uzunçuluq olardı. Yazını monoqrafik araşdırma kimi işləmək niyyətimiz olsaydı, (şairin yaradıcılığı bu missiyaya tam layiqdir - Ə.Ə.) təfərruatdan çəkinməzdik. Bununla belə onun məhəbbət lirikası barədə ümumi fikir söyləməklə məqaləyə son nöqtəni qoymağı qərarlaşdırmışıq. Hiss olunur ki, şairin dünyəvi, bəşəri məzmunlu şeirləri də az deyil.

Şairin məhəbbət ruhlu şeirləri kitabda "Sevgi ömür yolumdur" başlığı altında toplanmışdır. Səbəb nədir ki, əsrlər boyunca bu mövzuda yazılan əsərlərin davamı bitib tükənmir. Cavab isə Rafiq qələmində belədir:

Bu dünyada hər nə var
Sevgilərdən yaranıb.
Kökünə bağlananlar
Sabahına bağlanıb.

Dialektika və poetika. Təkcə bu deyim özünün elmi şərhi üçün neçə-neçə səhifə şərhinə ehtiyaclıdır. Bizim isə şərh yazmağa gücümüz və səbrimiz kasaddır. Buna görə də şairin daha uğurlu alınmış şeirlərinin adını çəkib yeni, bənzərsiz deyimlərini təqdim etməklə fikrimizə yekun vuraq. Şairin bu qəbildən olan şeirlərindən "Yazacam", "Ona sevmək öyrətdim", "Bu da bu" və "Ürək demir" şeirləri daha səciyyəvidir. Şair bu şeirlərdə yalnız közü qalan sevgidə "bahar vaxtı ayaz" görür, varlığı yalanlar içində dərd yükü olan sevgidə bir təsəlli axtarır, bu "dağa necə dözəcəyinə yollar" arayır. Və hər aramada mələk, külək, ələk, fələk bu poetik "mən"ə yol göstərmir, əlac axtarmır, yalnız "şair, artıq qocalmısan" deyirlər. Bu baxımdan "Ürək demir" şeiri poetik forma və bədii təzad mükəmməlliyi baxımından maraq doğurur. Şeirdə dağa dözmək Füzulinin dərd əlindən dağa çıxmasıyla az qala tənləşir.

Necə dözüm mən bu dağa,
Dərdim mənsiz çıxmır dağa.
Tələsirəm yaşamağa,
Mələk deyir: - qocalmısan.

Burada sevən aşıqın köməyinə öz ürəyi özünü yetirir.

İçimdəki yanan oddu,
Məşəl edib yanan odu.
Hər dərdimi çəkən odu,
Ürək demir: - Qocalmısan.

Şeirlərdə təsvir olunan məhəbbətin həsrətli, əzablı, hicrli, dolanbaclı olaylarına səbr göstərib sevgidə sadiq olduğunu şair eyni zamanda gözlənilməz, yumor hissiylə mayalanmış bir ovqatda sonuclayır.

Çəkəcəm nazını, nazın bəsimdi,
Çoxun çox dərdi var, azın bəsimdi.
Baharın bəsimdi, yazın bəsimdi,
Qışına dözərəm, xoşbəxt ol təki.

Tək səni sevirəm bəsimdir, yetər,
Bilmirəm həsrətin nə zaman bitər.
Mən səni sevəcəm sevdiyim qədər,
Sən məni sevmirsən, cəhənnəməki!

Rafiq Musanın poeziyasında ədəbi hadisə sayıla biləcək qədər bədii mətnlər olmasa da, bir sıra şeirlərində aşkar duyulan və poetik kəşflərlə müşayət olunan şeir və deyimləri vardır. Onlar poetik təzəliyi, ölçüsü, çəkisi və dəyəri etibarıla gözümüz önündə əsl ədəbiyyat adamının, olduqca istedadlı bir şairin şəxsiyyətini canlandırır. Güman edirik ki, bu məsələ də özünün ayrıca həllini gözləyir.

Bu tanıtım, təqdimat yönlü şərhimizdə güclü bir satirikin Sabiranə, həmçinin, Hikmət Ziya ovqatlı obrazını təqdim edə bildikmi?..

Şairə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

04.XII-2024.